# Güclü siyasi iradə, qlobal əməkdaşlıq, iqtisadi yüksəliş

## *Azərbaycanın əlverişli sərmayə mühiti xarici şirkətlərə yeni biznes və investisiya imkanları yaradır*

*Tarixi Zəfərlə əzəli torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycan başladığı sürətli quruculuq işlərində beynəlxalq təcrübədən ciddi yararlanır. Bu istiqamətdə müxtəlif ölkələrin bərpa təcrübəsi öyrənilir, beynəlxalq təşkilatlarla əməkdaşlıq edilir. Təkcə azad edilmiş ərazilərimizdə yox, ümumiyyətlə, ölkədə biznes və investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun, regionların və sahibkarlığın inkişafı ilə bağlı görülmüş işlər, pandemiyanın Azərbaycanda biznes mühitinə təsiri və hökumətin dəstək mexanizmləri, sənaye zonalarının, həmçinin Ələt Azad İqtisadi Zonasının logistika imkanları, işğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdış, bu ərazilərdə reallaşdırılacaq "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları sərmayədarlar üçün yeni biznes və investisiya imkanları yaradır.*

Qısa zaman kəsiyində Azərbaycanın azad olunmuş ərazilərdə gördüyü işlər beynəlxalq miqyasda həm təqdir edilir, həm də uğurlu nümunə kimi qəbul olunur. Ermənistanın işğal zamanı 30 il boyunca davam edən total dağıntılarının nəticə və fəsadları Azərbaycan dövləti tərəfindən aradan qaldırılır, ərazilərin bərpası və keçmiş məcburi köçkünlərin doğma ata-baba yurdlarına qayıtmasının təmin olunması istiqamətində əməli addımlar atılır. Artıq bu prosesdə çoxsaylı xarici şirkətlər yaxından iştirak edir. Yaranmış vəziyyətdə azad edilmiş ərazilərdə görülən bərpa, quruculuq işlərində investor və podratçı kimi iştirak etmək istəyən xarici tərəfdaşların sayı artır. Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında keçirilən VII iclasındakı çıxışında vurğulayıb ki, Azərbaycanın sərmayə mühiti olduqca münbitdir. Dünya Bankının hesabatına əsasən, Azərbaycan biznes fəaliyyəti üçün imkanlar baxımından 30 aparıcı dövlət sırasındadır. İşğaldan azad olunmuş ərazilərimizdə günəş, külək və su ehtiyatları vasitəsilə elektrik enerjisinin istehsalı üçün yeni imkanlar yarandığını bildirən Azərbaycan Prezidenti deyib: "Bu baxımdan mən ölkələrinizdən olan şirkətləri bizim tərəfdaşlarımız olmağa dəvət edirəm. Mən artıq rəsmi olaraq azad olunmuş əraziləri “yaşıl enerji” ilə təmin ediləcək bölgə elan etmişəm. Biz artıq master-plan üzərində çalışırıq və nəhəng su, günəş və küləyin potensialından istifadə edərək həmin layihələri icra edəcəyik". Prezident qeyd edib ki, daha bir layihə bütün azad olunmuş ərazilərdə "ağıllı şəhər"lərin yaradılmasıdır və bununla bağlı da hazırlıq işləri gedir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə Rize-Artvin Hava Limanının açılışında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı Türkiyə şirkətlərinin, o cümlədən Rize-Artvin Hava Limanını ərsəyə gətirən şirkətin də Qarabağın bərpasında yaxından iştirak etiyini bildirib. Qeyd edib ki, minlərlə türk qardaşımız bu gün Azərbaycanda Qarabağın inşası ilə bağlı öz işini görür. "Müttəfiqlik haqqında Şuşa Bəyannaməsi" Azərbaycan-Türkiyə münasibətlərini daha da möhkəmləndirib.

**(davamı 9-cu səhifədə)**

# Güclü siyasi iradə, qlobal əməkdaşlıq, iqtisadi yüksəliş

(əvvəli 1-ci səhifədə)

Hazırda işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma layihələrinin icrasına başlayan şirkətlər arasında Türkiyə şirkətləri ön sıradadır. Artıq türk şirkətləri Azərbaycan üçün önəmli infrastruktur layihələrini icra etməyə başlayıblar. Xüsusilə, Füzuli-Şuşa avtomobil yolunun tikintisində onlar Azərbaycan şirkətləri ilə birlikdə fəaliyyət göstərirlər. "Zəfər yolu" adlandırılan 101 kilometrlik yolun çəkilişində Türkiyənin 2 şirkəti - "Kolin İnşaat Sanayi Turizm ve Ticaret A.Ş" və "Özgun Yapı Sanayi ve Ticaret AŞ" şirkətləri iştirak edir. Ötən il noyabrın 16-da təməli qoyulmuş "Zəfər yolu" başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır.

Hazırda uzunmüddətli hədəfləri ilə Azərbaycan bərpaolunan enerji sektoruna investorlar cəlb etməkdə maraqlıdır. Artıq reallaşdırılmaqda olan külək və günəş elektrik stansiyaları məhz xarici investorların vəsaiti hesabına tikiləcək. Böyük və nüfuzlu şirkətlərin bu sahəyə Azərbaycanda iri investisiya yatırmasına maraq göstərməsi ölkəmizə, gələcəyimizə olan etimadın əməli ifadəsi hesab olunur. Son illərdə aparılmış islahatların bir hissəsi bərpaolunan enerji istehsalı ilə bağlıdır. Bu sahədə bir sıra təşəbbüslər uğurla reallaşdırılıb və bərpaolunan energetika sahəsi son dövrlərdə yaşıl iqtisadiyyatın inkişafında önəmli yer alıb. Xarici şirkətlərlə yeni layihələrin imzalanması bu sahədə atılan ciddi addımlardan biridir. Bu müqavilələr Azərbaycana sərmayə yatırılmasını nəzərdə tutur ki, bu da ilk növbədə milli iqtisadiyyatımıza stimul verəcək, yeni iş yerləri açılacaq. Ölkəmizin enerji dayanıqlığını təmin edəcək. Elektrik enerjisi istehsalının bərpaolunan enerji mənbələri hesabına şaxələndirilməsi Azərbaycan Prezidentinin xüsusi diqqət yetirdiyi prioritetlərdən biridir. Ölkəmizdə bərpaolunan enerji sahəsində ilk xarici tərəfdaşlar kimi "ACWA Power" və "Masdar" şirkətləri ilə əməkdaşlıq qarşılıqlı maraqlara töhfə verəcək. Bununla da Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri Azərbaycanda bərpaolunan enerji sahəsində həyata keçiriləcək pilot layihələri çərçivəsində 400 milyon ABŞ dollarına yaxın sərmayə yatıracaq. Əlavə edək ki, Avstriya şirkətləri də Qarabağda günəş enerjisi layihələrinə maraq göstərir. Onların da bu sahədə böyük təcrübəsi var.

## Azərbaycanın əlverişli sərmayə mühiti xarici şirkətlərə yeni biznes və investisiya imkanları yaradır

Zəngilan rayonunun Ağalı kəndində mənzil, istehsalat, sosial xidmətlər, "ağıllı təsərrüfat" və alternativ enerji kimi beş sektoru özündə cəmləşdirəcək ilk "ağıllı kənd" layihəsinin həyata keçirilməsində Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər. Burada, Azərbaycanda ilk dəfə "Huawei" şirkətinin "Air-PON" texnologiyasından istifadə ediləcək. Bu, fiberoptik xətlərin çəkilməsini 10 km-dən 1 km-ə qədər azaltmağa və sakinləri 100 meqabit sürətində naqilsiz internetlə təmin etməyə imkan verəcək. Azərbaycan Prezidenti bu layihələrin icrasında maraqlı olan əcnəbi şirkətlərin nümayəndələrilə videokonfrans formatında görüş keçirib. Konfrans zamanı İtaliyadan olan Cuzeppe Qrizoliya bildirib ki, onun şirkətinin biznes yanaşması Zəngilan kimi strateji ərazidə camışların saxlanacağı tam təchizatlı süd fabrikini işə salmaqdan ibarətdir. Kənddə tanınmış italyan pendiri olan "mozzarella di buffala" istehsal ediləcək, həmçinin 300-400 baş camış üçün ferma tikiləcək. Fermanı İsrail şirkəti tikəcək.

Qeyd etmək lazımdır ki, azad edilmiş ərazilərimizin zəngin təbii sərvətləri, mineral ehtiyatları, aqrar və turizm potensialı xarici şirkətlərin diqqətini cəlb edir. Yeni əsası qoyulmuş Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarının strateji əhəmiyyəti, azad edilmiş ərazilərdə sənaye zonalarının yaradılması xarici şirkətlərin investisiya yatırmaq imkanlarını daha da genişləndirəcək. Yük maşınlarının istehsalı üzrə dünyanın aparıcı şirkətlərindən olan Rusiyanın "KamAZ" ASC ilə Cəbrayılda "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin yaradılması da xarici sərmayədarların azad edilmiş ərazilərimizdə biznesin qurulmasında iştiraka maraqlarının göstəricisidir. Alman-Azərbaycan Xarici Ticarət Palatasına üzv şirkətlərin də 61 faizi bu layihələrdə podratçı-subpodratçı kimi və ya dövlət-özəl tərəfdaşlığı çərçivəsində iştirak etmək niyyətindədir. Sənaye zonalarında sahibkarlıq fəaliyyəti üçün yaradılmış əlverişli biznes mühiti investisiya cəlbediciliyini daha da artırır. Hazırda sənaye zonalarında xarici kapitallı bir çox rezident fəaliyyət göstərir. Belə ki, Sumqayıt Kimya Sənaye Parkında İsveçrə şirkəti olan "Sika" MMC müxtəlif növ tikinti məhsulları (qatqıları) istehsal edir. Ötən ilin oktyabrında Sənaye Parkının rezidenti kimi qeydiyyata alınan Çin kapitallı "Azərbaycan Vanhong Ceramics Co." MMC isə keramik plitələrin istehsalını həyata keçirəcək. Bundan başqa, Neftçala Sənaye Məhəlləsində İran-Azərbaycan birgə avtomobil müəssisəsi müxtəlif növ minik avtomobillərinin istehsalı ilə məşğuldur. Hacıqabul Sənaye Məhəlləsində qeydiyyata alınan "Penoplex Prikavkazye" MMC isə Rusiya kapitallı şirkətdir. Pirallahı Sənaye Parkında Rusiya-Azərbaycan birgə müəssisəsi olan "R-Pharm" MMC müxtəlif növ dərman məhsulları istehsal edir.

Azərbaycanla strateji tərəfdaşlıq əlaqələri quran Macarıstan sözügedən prosesdə maraqlı tərəflərdən biridir. Macarıstanın "Exim Bank"ının regional direktoru Robert Grillijov işğaldan azad edilmiş ərazilərin bərpasında iştirak etməyə müvafiq maliyyə vəsaiti ayırmağa hazır olduqlarını bildirir. Qeyd edək ki, "Exim Bank" Macarıstan şirkətlərinə Qarabağın yenidən qurulmasında iştirak etmək üçün 120 milyon dollar həcmində kredit xətti ayırıb. Macarıstan XİN yanında Türk Dövlətləri Təşkilatına cavabdeh olan Culiya Popelixin sözlərinə görə, Macarıstan şirkətləri Qarabağ bölgəsində şəhər infrastrukturunun bərpasında, enerji təchizatının qurulmasında və kənd təsərrüfatının qurulmasında iştirak edəcəklər.

Bu il martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının Gülüstan sarayında keçirilən təməlqoyma mərasimi zamanı Prezident İlham Əliyev deyib: "Əlbəttə ki, həm beynəlxalq maliyyə qurumları, həm böyük şirkətlər, investorlar Azərbaycana çox böyük maraqla yanaşırlar. Bizim siyasətimiz isə ölkəmizin bundan sonrakı sürətli inkişafını təmin etmək, əlbəttə ki, ilk növbədə, azad edilmiş torpaqları bərpa etmək, - bu, böyük ərazidir, 10 min kvadratkilometrdən çox bir ərazidir və eyni zamanda ölkəmizin dayanıqlı inkişafını təmin etməkdir. Bu, aksiomadır ki, elektrik enerjisi olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, birinci şərtdir, bu, əsas şərtdir. Xoşbəxtlikdən Azərbaycanda zəngin neft və qaz yataqları vardır və bu yataqların istismarı və işlənilməsi uğurla gedir. Müasir infrastruktur vardır - həm nəqliyyat, həm kommunikasiya, həm də elektrik xətləri ixrac bazarları ilə bizi birləşdirir. Güclü siyasi iradə vardır. Dünyanın demək olar ki, əksər ölkələri ilə sıx tərəfdaşlıq əlaqələri vardır".

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2022.- 27 may.- S.1;9.